Təhsil millətin gələcəyidir!
Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

2 may 2026-cı il №16 (9171) www.muallim.edu.az muallim@media.edu.az

# Prezident İlham Əliyev “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülüb

## Bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir

**Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyim səylərə görə “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülməyim ilə əlaqədar Gernika-Lumo və Pforsheym şəhər Şuralarına, Gernika Sülh Muzeyinə, Mədəniyyət evinə və “Gernika Qoqoratuz” Sülh Araşdırmaları Mərkəzinə dərin minnətdarlığımı ifadə edirəm.**



## Prezident İlham Əliyev sertifikatlaşdırma ilə bağlı dəyişiklikləri təsdiqlədi



Əmək Məcəlləsində və “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi təsdiqlənib.

Bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmana əsasən, Nazirlər Kabineti dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Qeyd edək ki, uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində təhsilverənlərin nəzəri və praktiki bilikləri sertifikasiya əsasında qiymətləndirilməsi ilə bağlı qanun layihəsi Milli Məclis tərəfindən qəbul edilib. Qaydaya əsasən, Mədəniyyət Nazirliyinin sisteminə daxil olan uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində işləyən təhsilverənlərin nəzəri və praktiki biliklərinin attestasiya yolu ilə deyil, xüsusi qaydalar üzrə sertifikasiya əsasında qiymətləndirilməsi aparılacaq.

## Dövlət, özəl sektor və biznes sənayesi arasında uğurlu tərəfdaşlıq nümunəsi




“PAŞA Holding” və SOCAR İspaniyanın nüfuzlu IE Universiteti ilə Bakıda İnnovasiya Mərkəzinin yaradılmasına dair memorandum imzalayıb

Bax səh.2

Aprelin 28-də “PAŞA Holding” və SOCAR, İspaniyanın nüfuzlu IE Universiteti ilə strateji tərəfdaşlıq çərçivəsində, Elm və Təhsil Nazirliyi və İqtisadiyyat Nazirliyinin dəstəyi ilə Bakıda Liderlik və İnnovasiya üzrə IE Mərkəzinin yaradılması məqsədilə Anlaşma Memorandumu imzalayıblar. Təşəbbüs ölkəmizdə liderlik bacarıqlarının inkişafına töhfə verməklə yanaşı, innovasiya və beynəlxalq əməkdaşlıq üçün regional platforma formalaşdırmaq, eləcə də Azərbaycanda insan kapitalının inkişafını dəstəkləmək məqsədi daşıyır.

## Uşaqların I sinfə qəbulu prosesi başlayır

6 may tarixindən 2026-2027-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start verilir. Qəbul prosesi www.mektebeqebul.edu.az portalı vasitəsilə aparılacaq. Uşaqların birinci sinfə elektron qəbulu ölkənin bütün şəhər və rayonlarının ümumi təhsil müəssisələrini əhatə edir.

Qeyd edək ki, bu il Azərbaycan bölməsi üzrə 81 minə yaxın uşaq məktəbəhazırlıq qrupundan avtomatik olaraq I sinfə keçirilib.



Gənc dizaynerlər üçün yeni platforma
Bax səh.4

"Bu medal doğma yurduma qayıdan şagird kimi ilk böyük uğurumdur"
Bax səh.5

Azərbaycan təhsilinin 94 illik yaddaşı
Bax səh.6

BMU-nun 6 ixtisası Avropa Reyestrinin bazasına daxil edilib
Bax səh.8

# Prezident İlham Əliyev “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülüb

## Bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir



Prezident İlham Əliyev aprelin 26-da “Sülh və Barışıq üçün Gernika mükafatı”-nın təqdimolunma mərasiminin iştirakçılarına məktub ünvanlayıb. Məktubda deyilir:

Hörmətli dostlar,

Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyim səylərə görə “Sülh və Barışıq üçün Gernika mükafatı”-na layiq görülməyim ilə əlaqədar Gernika-Lumo və Pforshaym şəhər Şuralarına, Gernika Sülh Muzeyinə, Mədəniyyət evinə və “Gernika Qoqoratuz” Sülh Araşdırmaları Mərkəzinə dərin minnətdarlığımı ifadə edirəm.

Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir. Bu mükafatın 26 aprel — Gernika qurbanlarının anım günündə təqdim olunması xüsusi rəmzi məna daşıyır. 89 il əvvəl Gernikada dinc əhaliyə qarşı törədilmiş amansız cinayət ötən əsrin ən dəhşətli və qanlı səhifələrdən biridir. Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm.

Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajı bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır.

30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış, müharibənin ağır fəsadları ilə üzləşmiş Azərbaycan xalqı da sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq.

2025-ci ilin avqustunda Vaşinqton şəhərində baş tutmuş tarixi Zirvə Görüşündə Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətni paraflanmış, eyni zamanda Birgə Bəyannamə imzalanmışdır. Bununla da üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatmış, xalqlarımız üçün sülhün, barışığın, qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulmuşdur.

Hazırda Azərbaycan bu yeni reallığa və sülh mühitində yaşamağa uyğunlaşır. Ümumi müsbət atmosfer, sabitliyə və təhlükəsizliyə daha çox inam bizi irəliləməyə və inkişaf gündəliyimizə daha çox vaxt və resurs ayırmağa imkan verir. Biz eyni zamanda sülhü möhkəmləndirmək və onu əməli fəaliyyətə çevirmək üçün addımlar atırıq və artıq hər iki cəmiyyətimiz sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur. Bu gün artıq Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac edilir.

İki ölkə arasında etimad quruculuğu tədbirləri davamlı sülhün bərqərar olmasında mühüm rol oynayır. Dövlət səviyyəsində atılan addımlarla yanaşı, vətəndaş cəmiyyətinin nümayəndələri arasında mütəmadi görüşlər bu prosesə müsbət töhfəsini verir.

Azərbaycanın və Ermənistanın nümunəsi göstərir ki, uzunmüddətli münaqişəyə, iztirablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, güclü siyasi iradə və beynəlxalq dəstək mövcud olduqda sülh əldə etmək mümkündür.

Hörmətli dostlar,

“Sülh və Barışıq üçün Gernika mükafatı” yalnız artıq əldə olunmuş nailiyyətlərin tanınması deyil, həm də beynəlxalq birliyin ortaq rifahı, sülh naminə atılacaq gələcək addımlar baxımından mühüm ruhlandırıcı stimul və məsuliyyətdir.

Bu mükafata görə bir daha təşəkkürümü ifadə edir, sülh, dialoq və qarşılıqlı anlaşmanın təşviqi istiqamətində fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

Hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# Dövlət, özəl sektor və biznes sənayesi arasında uğurlu tərəfdaşlıq nümunəsi

**Aprelin 28-də “PAŞA Holding” və SOCAR İspaniyanın nüfuzlu IE Universiteti ilə strateji tərəfdaşlıq çərçivəsində, Elm və Təhsil Nazirliyi və İqtisadiyyat Nazirliyinin dəstəyi ilə Bakıda Liderlik və İnnovasiya üzrə IE Mərkəzinin yaradılması məqsədilə Anlaşma Memorandumu imzalayıblar. Təşəbbüs ölkəmizdə liderlik bacarıqlarının inkişafına töhfə verməklə yanaşı, innovasiya və beynəlxalq əməkdaşlıq üçün regional platforma formalaşdırmaq, eləcə də Azərbaycanda insan kapitalının inkişafını dəstəkləmək məqsədi daşıyır.**






Rəqəmsal transformasiya, süni intellekt və dayanıqlı inkişaf kimi sahələrdə fəaliyyət göstərəcək mərkəzdə rəhbər kadrlar üçün təhsil proqramları və beynəlxalq tədbirlər təşkil ediləcək, eləcə də tədqiqat təşəbbüsləri həyata keçiriləcək.

Bu tərəfdaşlıq həmçinin yerli maraqlı tərəflərlə əməkdaşlıq vasitəsilə təhsildə mükəmməlliyi artırmağı və institusional potensialı dəstəkləməyi nəzərdə tutur. Tərəfdaşlıq çərçivəsində SOCAR və “PAŞA Holding” əməkdaşlarının peşəkar inkişafına töhfə vermək məqsədilə xüsusi uyğunlaşdırılmış təhsil proqramlarının həyata keçirilməsi də planlaşdırılır.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bu təşəbbüsün Azərbaycan gənclərinin və mütəxəssislərinin həyat və peşəkar fəaliyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addım, ümumilikdə Azərbaycan təhsilinə verilən dəyərli töhfə olduğunu qeyd edib. Mərkəzin yaradılmasında iştirak edən tərəflərə təşəkkürünü bildirən Emin Əmrullayev vurğulayıb ki, bu əməkdaşlıq dövlət, özəl sektor və biznes sənayesi arasında uğurlu tərəfdaşlıq nümunəsidir və əvvəlki uğurlu birgə fəaliyyətlərin məntiqi davamıdır. Nazir çıxışında təşəbbüsün azərbaycanlı mütəxəssislərin şəbəkələşmə imkanlarını genişləndirəcəyinə və onların qlobal platformalarda daha fəal iştirakına şərait yaradacağına inamını ifadə edib. Sonda Emin Əmrullayev qeyd edib ki, əsas məqsəd ali təhsili daha əlçatan, münasib və beynəlxalq səviyyədə rəqabətqabiliyyətli etməkdir.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev qeyd edib ki, insan kapitalının gücləndirilməsi, süni intellekt, rəqəmsal transformasiya kimi çağırışları hədəfləyən təşəbbüslər innovasiya əsaslı inkişafa yatırılan strateji investisiyalardır. Bu baxımdan beynəlxalq təhsil imkanlarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. “PAŞA Holding”, SOCAR və İspaniyanın IE Universiteti arasında əldə edilmiş razılaşmaya əsasən ölkəmizdə Liderlik və İnnovasiya IE Mərkəzinin yaradılması beynəlxalq təcrübənin tətbiqinə, müasir bilik və bacarıqların artırılmasına töhfələr verəcək.




## “PAŞA Holding” və SOCAR İspaniyanın nüfuzlu IE Universiteti ilə Bakıda İnnovasiya Mərkəzinin yaradılmasına dair memorandum imzalayıb

SOCAR-ın prezidenti Rövşən Nəcəf çıxışında SOCAR-ın insan kapitalının inkişafına mühüm önəm verdiyini bildirərək deyib ki, şirkət bu gün öz təcrübəsi və imkanları ilə bu təşəbbüsün həyata keçirilməsinə töhfə verir. Bu layihənin əsas məqsədi beynəlxalq təcrübədə olan yüksək bilik, bacarıq və liderlik səriştələrini Azərbaycana gətirib əlçatan etmək və ölkəmizdə böyük vizyona malik liderlərin hazırlanmasına xidmət etməkdir.

“IE Universiteti olaraq, bu təşəbbüsün irəlilədilməsində göstərdikləri uzaqgörənlik, inam və davamlı dəstəyə görə "PAŞA Holding" və SOCAR-a səmimi təşəkkürümüzü bildiririk. Birlikdə Azərbaycanda liderliyi, innovasiyanı və qlobal əməkdaşlığı təşviq edəcək bir mərkəzin təməlini qoyuruq. Bu tərəfdaşlıq istedadların inkişafına töhfə vermək, institutları gücləndirmək və daha dinamik, rəqabətqabiliyyətli gələcək formalaşdırmaq istiqamətində ortaq öhdəliyimizi əks etdirir.” - IE Universitetinin İcraçı prezidenti Santiaqo İniqes de Onsonyo çıxışında əlavə edib.

İmzalanma mərasimində çıxış edən “PAŞA Holding” in Baş icraçı direktoru Cəlal Qasımov bildirib: “Azərbaycanda, eləcə də Qafqaz və Mərkəzi Asiya regionunda insan kapitalının gücləndirilməsi bizim əsas prioritetlərimizdən biridir. Təxminən 100 milyon əhalisi olan bu region hazırda öz tarixinin önəmli inkişaf mərhələsindən keçir və biz bu prosesi kənardan izləyən deyil, gələcəyin formalaşmasına real töhfə verən tərəf olmağı vacib hesab edirik. Eyni zamanda, cari təşəbbüs bizim kimliyimizi də ifadə edir: biz tərəfdaşlıqlarında qlobal, köklərində isə yerli - Azərbaycanlı olan bir şirkətik. "BNY Melon", "Raiffeisen Bank International" kimi banklarla müxbir hesab tərəfdaşlıqları, "World Economic Forum" ilə əməkdaşlıq, "Four Seasons Hotels and Resorts", "Marriott International və One&Only Resorts" kimi şirkətlərlə əməkdaşlıq - bunların hər biri "PAŞA Holding"in artıq bir beynəlxalq şirkət olduğuna işarə edir ki, IE University ilə tərəfdaşlığımız da bu yanaşmanın nümunəsidir”.

Qeyd edək ki, 2006-cı ildə təsis olunmuş “PAŞA Holding” bu gün bankçılıq, sığorta, fintex, daşınmaz əmlak, pərakəndə ticarət, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərən ölkənin aparıcı biznes qruplarından biridir. 25 mindən çox əməkdaşı və 18 milyard ABŞ dollarını aşan aktivləri ilə Holdingin beynəlxalq fəaliyyəti də genişlənməkdədir. Hazırda “PAŞA Holding” Azərbaycan, Özbəkistan, Türkiyə, Gürcüstan, Monteneqro və ABŞ-də fəaliyyət göstərir.

Baş ofisi Azərbaycanda yerləşən qlobal enerji şirkəti SOCAR enerji resurslarının hasilatı, emalı və paylanması sahəsində ixtisaslaşıb. İnteqrasiya olunmuş iri enerji şirkəti kimi dünya miqyasında geniş fəaliyyət göstərən SOCAR bu gün müxtəlif beynəlxalq bazarlarda əhəmiyyətli rol oynayır.

# Valideynlərin məktəb və müəllimlə birgə fəaliyyət göstərməsi gənc nəslin inkişafında mühüm rol oynayır



## Emin Əmrullayev “Dayanıqlı inkişaf: ailə, qadın və uşaq siyasəti” mövzusunda keçirilən konfransda iştirak edib

**Aprelin 30-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə “Dayanıqlı inkişaf: ailə, qadın və uşaq siyasəti” mövzusunda konfrans keçirilib.**

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Davamında “Ailə, qadın və uşaq məsələləri sahəsində dövlət siyasəti” adlı film nümayiş etdirilib.

Açılış nitqi ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova son 30 il ərzində müstəqil Azərbaycan dövlətinin qurulması, möhkəmləndirilməsi və inkişafı prosesində insan kapitalına yönəlik siyasətin mərhələli şəkildə formalaşdığını və bu gün artıq sistemli bir xarakter aldığını qeyd edib.

Dövlət Komitəsinin fəaliyyətinə diqqət çəkən Komitə rəsmisi çıxışında vurğulayıb ki, ailə cəmiyyətin təməlidir, milli kimliyimizin daşıyıcısıdır, qadın bu təməlin yaradıcısı və aparıcı qüvvəsidir, uşaq isə dövlətimizin gələcəyidir, onun davamlı inkişafının təminatıdır. Məhz buna görə də dövlət siyasətimizin məqsədi bu istiqamətləri ayrı-ayrılıqda deyil, əksinə bir-birini qarşılıqlı şəkildə gücləndirən və tamamlayan vahid bir model kimi formalaşdırmaqdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva öz növbəsində qeyd edib ki, Azərbaycanda ailə, qadın və uşaq məsələləri dövlət siyasətində əsas yer tutur və bu sahədə həyata keçirilən tədbirlər nəticəsində mühüm nailiyyətlər əldə olunub. Ombudsman vurğulayıb ki, ölkə rəhbərliyi tərəfindən ailə, qadın və uşaq siyasəti sahəsində kompleks islahatlar həyata keçirilir, müdafiə mexanizmləri genişləndirilir və sosial təminat gücləndirilir. Bu tədbirlər cəmiyyətin sosial rifahının və dayanıqlı inkişafının təmin olunmasına xidmət edir.

Açılış mərasimində iştirak edən elm və təhsil naziri Emin Əmrullayev çıxışında bildirib ki, uşaqların təhsili və həyat keyfiyyətini yaxşılaşdırmaq üçün qarşılıqlı əməkdaşlığa əsaslanan iş modelinin qurulması son dərəcə vacibdir. Nazir qeyd edib ki, təhsil nailiyyətlərinə baxıldıqda iki istiqamət üzrə inkişafdan danışmaq mümkündür: birinci istiqamət təlim və nəticələr, ikinci istiqamət isə uşağın tərbiyəsi. Emin Əmrullayev vurğulayıb ki, məktəblərdə bu iki istiqamət paralel aparılmalı, xüsusilə tərbiyə məsələləri ön plana çəkilməlidir.

Emin Əmrullayevin sözlərinə görə, əsas məsələ ailənin övladına ötürdüyü dəyərlərdir. Valideynlərin məsuliyyətini dərk etməsi, məktəb və müəllimlə birgə fəaliyyət göstərməsi gənc nəslin inkişafında mühüm rol oynayır. Əlavə edib ki, dəyərlərə əsaslanan təhsil sisteminin formalaşdırılması cəmiyyət üçün daha sağlam, məsuliyyətli və düşüncəli fərdlərin yetişməsinə zəmin yarada bilər. Nazir həmçinin diqqətə çatdırıb ki, qadınların təhsil almasına imkan yaradılması vacibdir və gələcəyin təminatı təhsilli analardan asılıdır. Təhsilli anaların sayının artması həm də təhsilli uşaqların sayının artması deməkdir.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində 2018-ci ildən etibarən 4 milyon insanı əhatə edən 5 sosial islahat paketinin reallaşdırıldığını diqqətə çatdırıb. Bildirib ki, bu islahatların əsas məqsədi məhz cəmiyyətin həssas qruplarının, o cümlədən aztəminatlı ailələrin, qadınların və uşaqların sosial müdafiəsinin gücləndirilməsidir.

Nazir çıxışının yekununda vurğulayıb ki, ailə, qadın və uşaq siyasəti dayanıqlı inkişafın əsasını təşkil edən mühüm istiqamətlərdəndir. Bu sahədə həyata keçirilən tədbirlər yalnız bu günün deyil, gələcək cəmiyyətin də formalaşmasına xidmət edir.

Çıxışlardan sonra “Tarix yazanlardan gələcək quranlara” filminin nümayişi və bədii kompozisiyanın təqdimatı baş tutub.

Konfrans panel müzakirələrlə davam edib.




### Emin Əmrullayev

**Əsas məsələ ailənin öz övladına ötürdüyü dəyərlərdir. Valideynlərin öz məsuliyyətini dərk etməsi, məktəblə və müəllimlə birlikdə işləyərək yeni nəsil azərbaycanlıların inkişafına töhfə verməsi çox vacibdir**

**Valideynlərin övladlarının inkişafında oynadığı rol çox sadə, ölçüləbilən addımlarla ifadə oluna bilər. Belə ki, valideynin məktəbdən qayıdan övladına “bu gün məktəbdə nə öyrənmisən?” sualını verməsi uzunmüddətli dövrdə şagirdlərin həm riyaziyyat, həm oxu, həm də təbiət elmləri üzrə nəticələrinə müsbət təsir göstərir**

**Evdə olan kitabların sayı, valideynlərin mütaliəyə münasibəti, övladlarının təhsili ilə maraqlanaraq heç olmasa həftədə bir dəfə məktəbə gedib müəllimlərlə danışması və mövcud problemləri uşaqları ilə müzakirə etməsi diqqət və məsuliyyət məsələsidir. Bu, eyni zamanda valideynin öz valideynlik funksiyasını dərk etməsinin göstəricisidir**

**Təlim nəticələrinin yüksək olduğu, lakin dəyərlərin aşağı səviyyədə qaldığı təhsil sistemlərinə rast gəlmək çox çətindir. Cəmiyyətimizdə yalnız imtahan nəticələri deyil, eyni zamanda uşaqların tərbiyəsi, onların psixoloji-emosional inkişafı da müzakirə olunmalıdır**

**“Elmi tədqiqatlara nəzər salsaq görərik ki, təhsilli anaların övladlarının təhsil nailiyyətləri daha yüksək olur. Bu baxımdan təhsilli anaların sayının artması uzunmüddətli perspektivdə təhsil nailiyyətlərinin də yüksəlməsi deməkdir**

**Təhsilin mərkəzi, ən vacib iştirakçısı uşaqlardır. Digər tərəflər uşaqların təhsilinin daha yaxşı olması üçün əllərindən gələni etməlidirlər. Uşaqların inkişafı təkcə təhsil müəssisələrinin deyil, bütün cəmiyyətin vacib funksiyasıdır. Bu mənada qarşılıqlı əlaqənin qurulması olduqca vacibdir”**

# Elm və təhsil naziri Qaxda vətəndaşları qəbul edəcək

**Elm və təhsil naziri Emin Əmrullayev 26 may tarixində Qax şəhərində vətəndaşları qəbul edəcək.**

Qəbulda Qax, Şəki, Zaqatala və Balakən sakinləri iştirak edə bilərlər.

Adları çəkilən rayonların sakinləri 14 may (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.




**Mayın 1-də Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə “İctimai proseslər media müstəvisində” mövzusunda III Forumun açılış mərasimi keçirilib. Açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, müasir dövrdə ictimai proseslərin düzgün və peşəkar şəkildə işıqlandırılması dövlət-media əməkdaşlığının əsas prioritet istiqamətlərindən birinə çevrilib. Qeyd olunub ki, artıq üçüncü ildir təşkil olunan Forum bu istiqamətdə səmərəli dialoq platforması olmaqla yanaşı, media subyektləri ilə dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsinə, cəmiyyətin dolğun və etibarlı informasiya ilə təminatına mühüm töhfə verir.**

# Ölkəmizdə təhsilin rəqəmsallaşması prosesi sürətlə aparılır



## Firudin Qurbanov “İctimai proseslər media müstəvisində” mövzusunda III Forumun açılış mərasimində iştirak edib




Forumda çıxış edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov bildirib ki, rəqəmsallaşma müasir dövrdə informasiya dövriyyəsinin sürətini və əhatə dairəsini əhəmiyyətli dərəcədə genişləndirməklə yanaşı, media və kommunikasiya sahəsində innovativ yanaşmaların tətbiqini zəruri edən əsas amillərdən birinə çevrilib. Vurğulanıb ki, rəqəmsal transformasiya şəraitində etibarlı informasiya mühitinin qorunması, müasir kommunikasiya alətlərindən səmərəli istifadə və ictimai etimadın gücləndirilməsi media institutlarının qarşısında duran əsas prioritetlər sırasındadır.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında vurğulayıb ki, rəqəmsal transformasiya şəraitində media və təhsil institutları arasında əməkdaşlığın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Qeyd olunub ki, media savadlılığının artırılması, gənclərdə sorğulayıcı düşüncə və rəqəmsal bacarıqların formalaşdırılması, eləcə də etibarlı informasiya mühitinin təşviqi müasir təhsil siyasətinin əsas prioritetlərindəndir, bu baxımdan insan kapitalının inkişafı, süni intellekt və innovasiya əsaslı yanaşmaların tətbiqi dayanıqlı inkişafın mühüm tərkib hissəsinə çevrilib.

Nazir müavini əlavə edib ki, ölkəmizdə təhsilin rəqəmsallaşması prosesi sürətlə aparılır. Hazırda təhsil məlumatları bütün inzibati səviyyələr üzrə rəqəmsallaşdırılıb. Şagird—kompüter nisbətini yaxşılaşdırmaq istiqamətində işlər görülür. Məktəblərin 63 faizi və şagirdlərin 82 faizi genişzolaqlı internetlə təmin olunub. Növbəti mərhələdə bütün məktəblərə fiber-optik internet, yenilənmiş daxili şəbəkə, müəllim və şagird cihazlarının qoşulması və gücləndirilmiş texniki dəstək təmin olunacaq.

Çıxışında “Rəqəmsal bacarıqlar” və "STEAM Azərbaycan" layihələri, eləcə də “Rəqəmsal məktəb” platforması barədə məlumat verən nazir müavini qeyd edib ki, bu sahədə əldə olunan irəliləyiş dövlətin rəqəmsallaşmaya verdiyi önəmin nəticəsidir və təhsil sistemində müsbət dəyişikliklərə səbəb olub. Eyni zamanda süni intellektin tətbiqi ilə vahid məlumatların idarə edilməsi sisteminin qurulması istiqamətində işlər nəzərdə tutulur. Bu sistem təhlükələrin azaldılması və zəruri tədbirlərin operativ şəkildə həyata keçirilməsi baxımından əhəmiyyətlidir.

Nazir müavini çıxışının sonunda qeyd edib ki, media bu gün sadəcə vasitəçi deyil, həm cəmiyyəti birləşdirə, həm də onun strukturunda destruktiv dəyişikliklər yarada bilən ictimai proseslərin aktiv iştirakçısıdır. Belə şəraitdə qeyri-dəqiq məlumatların yayılmasına yol verməmək üçün yüksək peşəkarlıq tələb edilir. Mövcud risklərə baxmayaraq, sosial media daha məlumatlı və fəal cəmiyyətin formalaşdırılması üçün unikal imkanlar təqdim edir. Dezinformasiyaya qarşı mübarizə vasitələrinin təkmilləşdirilməsi, əhalinin media savadlılığının inkişaf etdirilməsi və çoxsəviyyəli fakt yoxlama sistemlərinin yaradılması informasiya məkanının keyfiyyətini əhəmiyyətli dərəcədə artıra bilər. Bu baxımdan inanırıq ki, Forum bu qlobal proseslərin inkişafına, medianın hərtərəfli tərəqqisinə yardım edəcək konstruktiv təkliflər verəcək.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Read Qasımov öz növbəsində qeyd edib ki, ölkədə həyata keçirilən müasir şəhərsalma, yenidənqurma və bərpa layihələrinin sosial, iqtisadi və mədəni əhəmiyyətinin geniş auditoriyaya çatdırılması, eləcə də müvafiq sahədə ictimai məlumatlılığın artırılması media ilə dövlət qurumları arasında effektiv kommunikasiya mexanizmlərinin formalaşdırılmasını zəruri edir. O vurğulayıb ki, 2026-cı ilin ölkədə “Şəhərsalma və Memarlıq İli” elan edilməsi bu mövzuda informasiya təminatının aktuallığını daha da artırmaqla yanaşı, şəhərsalma siyasətinin prioritetlərinin cəmiyyətə sistemli və ardıcıl şəkildə təqdim olunması üçün əlavə imkanlar yaradır.

Açılış mərasimində “Şəhərsalma və Memarlıq İli”nə həsr olunan, həmçinin ötən il keçirilmiş Forumun əsas məqamlarını əks etdirən videoçarxlar nümayiş olunub.

Qeyd edək ki, Forum öz işini “Şəhərsalma və Memarlıq İli”ndə media gündəmi”, “Rəqəmsal mühitdə gözlənilməz risklər: Zərərli informasiyaya qarşı birgə mübarizə” və “Rəqəmsal inkişaf: Media, süni intellekt və innovasiya” mövzularında panel sessiyalarla davam etdirir.

### Firudin Qurbanov

**“Hazırda media mühiti sürətlə transformasiyaya məruz qalır. Təəssüflər olsun ki, qlobal informasiya məkanında dezinformasiya, saxta xəbərlər, hibrid təhdidlər, süni intellektin imkanlarından sui-istifadə və digər manipulyasiya halları dayanmadan artmaqdadır...” vurğulayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu amillərin ölkənin imicinə, daxili həyatına ciddi təsir etdiyini, beynəlxalq sabitliyə zərbə vurduğunu xüsusi qeyd edərək, media qurumlarını bu hallara qarşı mübarizəyə səsləyir**

**Yalnız texnoloji, hüquqi, təhsil və sosial-mədəni tədbirləri birləşdirən kompleks yanaşma yeni medianın potensialından səmərəli istifadə etməyə və rəqəmsal transformasiyanın ictimai rəyin formalaşmasına təsirində mənfi halları minimuma endirməyə imkan verə bilər**

**Ölkəmizdə təhsilin rəqəmsallaşması prosesi sürətlə aparılır. Hazırda şagird–kompüter nisbətini yaxşılaşdırmaq istiqamətində işlər görülür. Hazırda məktəblərin 63%-i və şagirdlərin 82%-i genişzolaqlı internet şəbəkəsinə qoşulub. Növbəti mərhələdə bütün məktəblərə fiber-optik internet, yenilənmiş daxili şəbəkə, müəllim və şagird cihazlarının qoşulması və gücləndirilmiş texniki dəstək təmin olunacaq. Mövcud vəziyyətdə 6 şagirdə 1 kompüter düşür və əsas hədəfimiz hər şagird üçün 1 kompüter nisbətini təmin etməkdir**

**Elm və Təhsil Nazirliyi tərəfindən şagirdlər arasında bir neçə mühüm layihə həyata keçirilir: “Bunlardan biri “Rəqəmsal bacarıqlar” layihəsidir. Layihəyə 2017-ci ildə başlanılıb və ilkin mərhələdə cəmi 15 minə yaxın şagird qoşulmuşdu. Hazırda isə bu layihədə 330 mindən çox şagird iştirak edir.**

**“Rəqəmsal məktəb” transformasiya layihəsi də hazırda həyata keçirilir. Bu platformadan şagirdlər, valideynlər, müəllimlər və məktəb rəhbərliyi istifadə edir və bu, təhsil prosesinin daha səmərəli təşkilinə və intensivləşdirilməsinə geniş imkanlar yaradır. Eyni zamanda süni intellektin tətbiqi ilə vahid məlumatların idarə edilməsi sisteminin qurulması istiqamətində işlər nəzərdə tutulur. Bu sistem təhlükələrin azaldılması və zəruri tədbirlərin operativ şəkildə həyata keçirilməsi baxımından əhəmiyyətlidir”**

# AzMİU işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq prosesində mühüm rol oynayır




## İdris İsayev AzMİU-nun 50 illik yubileyi münasibətilə təltifetmə mərasimində iştirak edib

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) 50 illik yubileyi münasibətilə təltifetmə mərasimi keçirilib.**

Tədbirdə elm və təhsil nazirinin müavini İdris İsayev, universitet rəhbərliyi, professor-müəllim heyəti, əməkdaşlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Dövlət Himni səsləndirilib.

Daha sonra ali təhsil ocağının yarıməsrlik fəaliyyət yoluna həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev Azərbaycan Memarlıq və İnşaat Universitetinin ölkənin ali təhsil sistemində xüsusi yerə malik olduğunu bildirib. Nazir müavini qeyd edib ki, AzMİU uzun illərdir ölkəmiz üçün strateji əhəmiyyət daşıyan memarlıq, inşaat, mühəndislik, şəhərsalma və digər prioritet istiqamətlər üzrə yüksəkixtisaslı kadr hazırlığını uğurla həyata keçirir. Nazir müavini universitetin ölkənin sosial-iqtisadi inkişafında, xüsusilə müasir infrastruktur layihələrinin reallaşdırılmasında və işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq prosesində mühüm rol oynadığını vurğulayıb.

Daha sonra çıxış edən AzMİU-nun rektoru Gülçöhrə Məmmədova qeyd edib ki, təqdim olunan mükafatlar AzMİU kollektivinin uzun illər ərzində səmərəli fəaliyyətinə verilən yüksək qiymət və böyük etimadın göstəricisidir. O vurğulayıb ki, universitet kollektivi bundan sonra da göstərilən etimadı doğrultmaq, ölkəmiz üçün peşəkar və rəqabətqabiliyyətli mütəxəssislər hazırlamaq, elmi fəaliyyətin inkişafına töhfə vermək üçün bütün gücü ilə çalışmağa davam edəcək.






Çıxışlardan sonra əməkdaşlara təltiflər təqdim edilib.

# Nazir müavini Vorvik Universitetinin dekan müavini ilə görüşüb



**Aprelin 30-da elm və təhsil nazirinin müavini Həsən Həsənli Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Vorvik Universitetinin beynəlxalq əlaqələr üzrə dekan müavini Robin Clark ilə görüşüb.**

Görüş çərçivəsində iki qurum arasında ali təhsil sahəsində mövcud əməkdaşlıq, o cümlədən Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə Vorvik Universiteti arasında həyata keçirilən “Bərpa olunan enerji mənbələri” ikili magistr proqramı müzakirə olunub, bu istiqamətdə gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# 90 min müəllimin əməkhaqqısı diferensial qaydada tənzimlənəcək

## Bu ildən attestatlar elektron formada təqdim olunacaq




Aprelin 28-də Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov media nümayəndələri üçün brifinq keçirib. Brifinqdə bir sıra məsələlərə aydınlıq gətirilib, yeniliklər haqqında məlumat verilib və jurnalsitlərin sualları cavablandırılıb.

- **“Növbəti illərdə məktəb psixoloqları daxil olmaqla bütün pedoqoji heyətin sertifikasiyadan keçirilməsi planlaşdırılır**
- **Bu il icma əsaslı məktəbəqədər təhsil qruplarından yararlananların sayı 35 minə çatdırılacaq.**
- **Şagirdlərə verilən virtual yaşıl kartların çoxluğu məktəblərdə müsbət davranışların üstün hal aldığını göstərir**
- **Cari ilin yanvar və fevral aylarında təqdim olunan hesabatlara əsasən, ölkə üzrə ümumtəhsil məktəblərində verilən sarı kartların sayı 29 161, qırmızı kartların sayı 5831, yaşıl kartların sayı isə 46 383 olub**
- **90 min müəllimin əməkhaqqısı diferensial qaydada tənzimlənəcək.**
- **Bu ildən attestatlar elektron formada təqdim olunacaq. Şagirdlər attestatlarını istənilən vaxt onlayn əldə edə biləcəklər**
- **“Rəqəmsal məktəb” platforması gələn tədris ilindən daha 5 şəhərdə tam tətbiq olunacaq**
- **Gəncə, Mingəçevir, Sumqayıt, Naxçıvan şəhərlərinin və Abşeron rayonunun məktəblərində kağız jurnal ləğv ediləcək”**





# Bakıda “Dizayn həftəsi”

## Gənc dizaynerlər üçün yeni platforma

**Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) “Dizayn həftəsi” başlayıb. Aprelin 27-dən start götürən tədbir artıq ikinci ildir ki, keçirilir.**

Universitetin Dizayn fakültəsinin təşkilatçılığı ilə keçirilən tədbir yaradıcılıq, innovasiya və beynəlxalq əməkdaşlığın təşviqi baxımından mühüm platforma kimi diqqət çəkib.

Açılış mərasiminə dizayn istiqaməti üzrə ixtisasları olan universitetlərin rektorları da qatılıb. Tədbirdə açılış nitqi ilə çıxış edən AzMİU-nun Dizayn fakültəsinin dekanı, dosent Fərid Kərimov tədbirin əhəmiyyətindən danışaraq bildirib ki, “Dizayn həftəsi” tələbələrin yaradıcılıq potensialının üzə çıxarılması, onların yeni ideyalarının dəstəklənməsi və beynəlxalq təcrübə mübadiləsinin genişləndirilməsi baxımından mühüm rol oynayır.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova çıxışında qeyd edib ki, xalqımızın mədəni həyatında yaradıcılıq hər zaman xüsusi yer tutub və bu zəngin irs cəmiyyətin estetik zövqünün, düşüncə tərzinin formalaşmasında mühüm rol oynayıb. Rektor vurğulayıb ki, Dizayn fakültəsi nisbətən yeni struktur olsa da, qısa müddət ərzində mühüm nailiyyətlər qazanaraq universitetin sürətlə inkişaf edən fakültələrindən birinə çevrilib.

Gülçöhrə Məmmədova bildirib ki, fakültədə formalaşan yaradıcı mühit tələbələrin potensialının üzə çıxarılmasına, onların beynəlxalq səviyyədə rəqabətqabiliyyətli mütəxəssislər kimi yetişməsinə geniş imkan yaradır. O, həmçinin süni intellektin tədris və dizayn sahəsinə tətbiqi məsələsinə toxunaraq qeyd edib ki, bu istiqamət yeni imkanlar açsa da, məsələyə xüsusi məsuliyyət və balanslı yanaşmaq vacibdir. Onun sözlərinə görə, süni intellektdən düzgün istifadə həm təhsilin keyfiyyətinin yüksəlməsinə, həm də yaradıcı yanaşmaların inkişafına mühüm töhfə verəcək.

Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, professor Natiq Əliyev çıxışında AzMİU-nun memarlıq və dizayn sahəsində keyfiyyətli təhsili ilə seçildiyini bildirib. O qeyd edib ki, universitetdə formalaşan güclü akademik mühit və yaradıcı yanaşma tələbələrin peşəkar inkişafında mühüm rol oynayır.







Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev isə çıxışında AzMİU-da dizayn sahəsində tətbiq olunan müasir yanaşmaların öyrənilməsində maraqlı olduqlarını bildirib. O, bu istiqamətdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Tədbirdə həmçinin Odlar Yurdu Universitetinin İdarəetmə Şurasının sədri, professor Samir Vəliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru Elnarə Ənsari, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Rəşad Zeynalov çıxış edərək layihənin əhəmiyyətindən bəhs edib, gənclərin yaradıcılıq potensialının inkişafı üçün belə platformaların vacibliyini vurğulayıblar.

Çıxışlardan sonra Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) ilə Azərbaycan Rəssamlıq Akademiyası, Naxçıvan Dövlət Universiteti, Odlar Yurdu Universiteti və DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi arasında əməkdaşlığa dair memorandumlar imzalanıb.

Memorandumlarda dizayn sahəsi üzrə qarşılıqlı akademik əməkdaşlığın genişləndirilməsi, birgə elmi-tədqiqat və yaradıcılıq layihələrinin həyata keçirilməsi, seminar, təlim, ustad dərsləri və sərgilərin təşkili, inklüziv təhsil imkanlarının inkişaf etdirilməsi, ortaq təşəbbüslərin reallaşdırılması, eləcə də gənclərin peşəkar bacarıqlarının artırılmasına yönəlmiş proqramların icrası nəzərdə tutulur.

Eyni zamanda, sənədlər ali təhsil müəssisələri ilə sosial tərəfdaş qurumlar arasında əlaqələrin möhkəmləndirilməsi, müasir əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlığı və yaradıcı sənaye sahəsində yeni əməkdaşlıq platformalarının formalaşdırılmasına xidmət edir.

Açılış günü proqramına uyğun olaraq qonaq universitetlərin tələbələrinin işlərindən ibarət sərgilər təşkil olunub. Bu sərgilər ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi, təcrübə mübadiləsinin gücləndirilməsi və gənc dizaynerlərin yaradıcılıq potensialının nümayiş etdirilməsi məqsədi daşıyıb. Bununla yanaşı, universitet-sənaye əməkdaşlığı istiqamətində səmərəli görüşlər və mühüm müzakirələr aparılıb.

Tədbir çərçivəsində bir sıra tərəfdaş universitetlərlə əməkdaşlıq memorandumları da imzalanıb. Bu sənədlər gələcəkdə birgə layihələrin həyata keçirilməsi, beynəlxalq sərgilərin təşkili və tələbələr üçün yeni imkanların yaradılmasını nəzərdə tutur. Sözügedən təşəbbüslər AzMİU-nun qlobal dizayn təhsili şəbəkəsində mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edir.

Qeyd olunub ki, “Dizayn həftəsi” bu il xüsusi əhəmiyyət daşıyır. Belə ki, “Memarlıq və Şəhərsalma İli” çərçivəsində keçirilən tədbir Bakının ev sahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumu (WUF13) ərəfəsinə təsadüf edir. Bu baxımdan platforma gənclərin yaradıcılıq potensialının üzə çıxarılması, onların müasir dizayn düşüncəsi və dayanıqlı şəhər mühiti anlayışları ilə tanış edilməsi baxımından mühüm rol oynayır.

**Ruhiyyə DAŞSALAHLI**

# Gənc nəslin Qarabağın inkişafına hazırlanması xüsusi əhəmiyyət daşıyır

## Xankəndidə Birinci Qarabağ Təhsil Forumu keçirilib

**Aprelin 26-da Qarabağ Universitetində Pedaqoji fakültənin təşkilatçılığı ilə I Qarabağ Təhsil Forumu keçirilib. Əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**



Tədbirdə çıxış edən Qarabağ Universitetinin rektoru Şahin Bayramov Qarabağda əsas hədəflərdən birinin elm və təhsilin inkişafına töhfə vermək olduğunu bildirib.

Rektor qeyd edib ki, pedaqoji fəaliyyətin yüksək səviyyədə təşkili, gənc nəslin Qarabağın inkişafına hazırlanması və tələbələrin gələcəkdə müxtəlif təhsil müəssisələrində səmərəli fəaliyyəti xüsusi əhəmiyyət daşıyır.

Sonra çıxış edən Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor səlahiyyətlərini icra edən Elnur Əliyev bildirib ki, Azərbaycan müəlliminin rolu insan kapitalının formalaşdırılmasında əsas və aparıcı qüvvə kimi xüsusi əhəmiyyət daşıyır.

O da qeyd olunub ki, son dövrlərdə təhsilin keyfiyyəti, müəllim hazırlığı və məktəblərdə pedaqoji fəaliyyətlə bağlı aparılan ictimai müzakirələr cəmiyyətin bu sahədən gözləntilərinin yüksək olduğunu göstərir.

Forumda çıxış edən TISA-nın direktoru Angela Romney, Baku-Oksford Məktəbinin orta təhsil üzrə direktor müavini Rəna Ələsgərova, TISA-nın ümumməktəb fəaliyyətləri üzrə direktor müavini Rebecca Greenall müasir təhsildə yanaşma, müəllimlərin şagirdlərlə güclü münasibət qurma bacarığı, biliklərin şagirdlərə effektiv şəkildə çatdırılması və mənimsəliməsi mövzularına toxunublar.

Forumda 2 panel üzrə müzakirələr təşkil olunub. "Təhsilin keyfiyyətinin artırılması" panelində "Məktəblər və universitetlər təhsilin keyfiyyətini artırmaq üçün necə əməkdaşlıq edə bilərlər?", "Hansı keyfiyyətlərə sahib olan abituriyentlər ali təhsil pilləsində uğurlu olurlar?", "Məktəb və universitet əməkdaşlığının mövcud vəziyyətinin necə qiymətləndirilməsi", "Müəllim yalnız bilik ötürən olmalıdır, yoxsa eyni zamanda araşdıran bir mütəxəssis?", "Məktəb müəllimlərinin universitetlərdə aparılan tədqiqatlara qoşulması nə dərəcədə faydalı ola bilər?" mövzularında sualları TISA-nın direktoru Angela Romney, MTK-nın baş icraçı direktoru Tural Abbasov, ADA Universitetinin Təhsil fakültəsinin dekanı Ülviyyə Mikayılova, Bakı Avropa liseyinin direktoru Zülfiyyə Veysova və Bakı şəhər 132-134 nömrəli Təhsil Kompleksinin direktoru Aygün Mikayılova sualları cavablandırıblar.

Digər paneldə isə " Şagirdləri müxtəlif mədəni və coğrafi mühitlərdə əməkdaşlığa necə hazırlaya bilərik?", "Süni intellektin dərhal cavablar təqdim etdiyi bir dövrdə "əsas biliklər" anlayışı necə dəyişməlidir?", "Şagirdlərə "öyrənməyi öyrənmək" kimi meta-bacarıqları necə aşılaya bilərik ki, gələcəkdə peşələri dəyişdikdə uyğunlaşa bilsinlər? ", "Ənənəvi qiymətləndirmə sistemi tələbənin gələcək uğur potensialını ölçmək üçün hələ də etibarlıdırmı?" mövzuları üzrə Avropa Azərbaycan Məktəbinin direktor müşaviri Asif Cahangirov, Landau Akademiyasının rəhbəri Ləman Bayramlı Pirs, "Oxbridge Academy"nin icraçı direktoru Güney Cəfərova, TİSA-nın ümumiməktəb fəaliyyətləri üzrə koordinatoru Rebecca Greenall, "Baku-Oxford School"un tam orta təhsil üzrə direktor müavini Rəna Ələsgərova öz təcrübələrini bölüşüblər.

Yekunda iştirakçılar üçün panel seminarlar təşkil edilib.

Qeyd edək ki, forumda Ağdam, Şuşa, Xankəndi və Xocalı məktəblərinin 115 müəllimi də iştirak edib.

### "Qarabağda güclü akademik mühitin formalaşdırılması əsas hədəflərdəndir"



Şahin BAYRAMOV,
*Qarabağ Universitetinin rektoru*

"Əsas hədəflərdən biri Qarabağda elm və təhsilin inkişafına töhfə verməkdir. Pedaqoji fəaliyyətin yüksək səviyyədə təşkili, gənc nəslin Qarabağın inkişafına hazırlanması və tələbələrin gələcəkdə müxtəlif təhsil müəssisələrində səmərəli fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Bu gün görülən işlər gələcək illərdə öz müsbət nəticələrini verəcək və Qarabağda elm, təhsil və mədəni həyatın dirçəlişinə xidmət edəcək".

### "Müəllim öz fəaliyyətini təhlil etməli və hər bir şagirdə uyğun yanaşma tapmalıdır"



Angela ROMNEY,
*TİSA-nın direktoru*

"Dünyada müəllim standartlarının müxtəlif modelləri mövcuddur və bu standartlar müəllimlərdən çoxşaxəli bacarıqlar tələb edir. Standartların geniş olması müəllimlərdən həm peşəkar bilik, həm də şagirdlərlə güclü münasibətlər qurmaq bacarığı tələb olunması ilə bağlıdır... Müəllim deməməlidir ki, bu şagird diqqət çatışmazlığına görə öyrənə bilməz və ya digəri tənbəldir. Əksinə, müəllim öz fəaliyyətini təhlil etməli və hər bir şagirdə uyğun yanaşma tapmalıdır".

### "Müəllimin rolu insan kapitalının formalaşdırılmasında aparıcı qüvvədir"



Elnur ƏLİYEV.
*Təhsil İnstitutunun direktor səlahiyyətlərini icra edən*

"Qarabağ Universitetində müəllim hazırlığı istiqamətində formalaşdırılan fakültə gələcəyin vətəndaşlarını yetişdirəcək pedaqoqların hazırlanması baxımından mühüm rol oynayacaq. Son dövrlərdə təhsilin keyfiyyəti, müəllim hazırlığı və məktəblərdə pedaqoji fəaliyyətlə bağlı aparılan ictimai müzakirələr cəmiyyətin bu sahədən gözləntilərinin yüksək olduğunu göstərir".

### "Müəllim-şagird-valideyn prizması keyfiyyətli təhsilin bünövrəsidir"



Asif CAHANGİROV,
*Əməkdar müəllim, Amonaşvili Humanist Pedaqogika Akademiyasının professoru*

"Müasir dövrün şagirdlərinin əvvəlki dövrdən fərqli xüsusiyyətlərini anlamaq lazımdır. Müasir uşaqlar məcburiliyi qəbul etmirlər. Tədris prosesində peşəkarlıq uğurlu təhsil və nailiyyətli gəncliyin qurulması deməkdir. Müəllim-şagird-valideyn prizması qorunmalıdır. Bu, keyfiyyətli təhsilin bünövrəsidir. Bu əməkdaşlıqda şagirdə dəstək ön planda olmalıdır".

## "Bu medal doğma yurduma qayıdan şagird kimi ilk böyük uğurumdur"

### İşğaldan azad edilmiş ərazilərin ilk olimpiada qalibi

**Respublika fənn olimpiadalarının final turunun nəticələrinə əsasən, işğaldan azad olunmuş Cəbrayıl şəhərində fəaliyyət göstərən Cəbrayıl şəhəri Mehdi Mehdizadə adına tam orta ümumtəhsil məktəbinin 8-ci sinif şagirdi Yusif İsmayılzadə tarix fənni üzrə gümüş medala layiq görülüb.**



"Azərbaycan müəllimi" Yusiflə həmsöhbət olub.

Yusif ilk olaraq Abşeron rayonu Mehdiabad qəsəbəsi 5 nömrəli tam orta ümumtəhsil məktəbində təhsil alıb. Hazırda M.Mehdizadə adına tam orta ümumtəhsil məktəbində təhsilini davam etdirir.

Bu il iştirak etdiyi RFO-da uğurlu nəticə göstərərək gümüş medala sahib olub. Onun qazandığı bu yüksək nəticə işğaldan azad olunmuş ərazilərimizdə ilk olimpiada uğurudur:

"Bu mənim üçün təkcə şəxsi nailiyyət deyil, həm də "Böyük qayıdış" proqramı çərçivəsində doğma yurduma qayıdan şagird kimi əldə etdiyim ilk böyük uğurdur. Nailiyyətim məndə sözlə ifadə edilməsi çətin olan böyük qürur və sevinc hissləri yaradır. Doğma torpağımda, Cəbrayılda uğura imza atmaq mənim üçün xüsusilə dəyərlidir və yaddaqalan bir an kimi həyatımda xüsusi yer tutur.

Bu uğur mənə göstərdi ki, qarşıya məqsəd qoyub əzmlə çalışdıqda hər bir çətinliyi aşmaq mümkündür. Əldə etdiyim nəticə mənə böyük hədəflər üçün inam verir və daha çox çalışmağa ruhlandırır.

Bu nailiyyətdə müəllimlərimin əməyi, ailəmin dəstəyi və mənə olan inamları böyük rol oynayıb. Mən də bundan sonra onların etimadını doğrultmaq üçün səylə məktəbimi və ölkəmi daha yüksək səviyyədə təmsil etməyə çalışacağam. Bu uğur mənim gələcək nailiyyətlərimin başlanğıcıdır və qarşıda məni daha böyük zirvələr gözləyir".



### Cəbrayıl məktəbinin 3 şagirdi RFO medalçısı oldu

Tarix fənni üzrə Respublika Fənn Olimpiadasının final mərhələsində Cəbrayıl rayonu 10 nömrəli tam orta ümumtəhsil məktəbinin 3 şagirdi yüksək nəticə göstərərək qaliblər sırasında yer alıb.

Ümumi təhsil müəssisəsinin VIII sinif şagirdi Həmzəyev Ramal Amil oğlu gümüş, X sinif şagirdləri Bəyişli Səməngül Natiq qızı və Əzizli Sənay Ruslan qızı isə bürünc medala layiq görülüblər.

### Heydər Əliyev adına Müasir Təhsil Kompleksi Xankəndidə filialını açıb

**Heydər Əliyev adına Müasir Təhsil Kompleksi Xankəndi şəhərində yeni filialını açıb.**

25 illik təcrübə və güclü dəyərlərlə minlərlə şagirdin təhsil yoluna işıq salan MTK milli köklərə sadiq, beynəlxalq standartlara cavab verən təhsil modelini doğma Qarabağa daşıyır.

Xankəndi filialında 2026-2027-ci tədris ili üçün məktəbəqədər və ibtidai bölmələr üzrə şagird qəbulu artıq açıq elan edilib.

## Qarabağ Universitetinin müəllimi Rumıniyada tədqiqat aparır

**Qarabağ Universitetinin Mühəndislik fakültəsinin müəllimi, fizika üzrə fəlsəfə doktoru Orxan Güləhmədov Elm və Texnologiyada Avropa Əməkdaşlığı proqramı (COST Action CA21126) çərçivəsində elan olunmuş "Qısamüddətli Elmi Missiya" (Short-Term Scientific Mission — STSM) səfər qrantını qazanaraq beynəlxalq elmi-tədqiqat fəaliyyətini davam etdirir.**



12-26 aprel 2026-cı il tarixlərində həyata keçirilən səfər çərçivəsində o, Rumıniya Respublikasının Magurele şəhərində yerləşən Milli Materiallar Fizikası İnstitutunda (National Institute of Materials Physics — NIMP) tədqiqatlar aparır. Tədqiqatlar institutun professoru Mihaela Baibarak ilə birgə "Kosmos tətbiqlərinə uyğun hibrid enerji yığımı və saxlanması üçün triboelektrik nanogeneratorlarda GO və rGO—polisiloksan nanokompozitlərinin spektroskopik tədqiqi" mövzusu üzrə həyata keçirilir.

Aparılan tədqiqatlar çərçivəsində nanokompozit materialların triboelektrik nanogeneratorların çıxış göstəricilərinə təsiri öyrənilir, onların optimallaşdırılması istiqamətində elmi yanaşmalar tətbiq olunur. Bu istiqamətdə əldə olunacaq nəticələrin enerji yığımı sistemlərinin səmərəliliyinin artırılmasına, xüsusilə kosmik və ekstremal mühitlər üçün innovativ enerji həllərinin inkişafına töhfə verəcəyi gözlənilir.

Eyni zamanda, sözügedən elmi əməkdaşlıq Qarabağ Universitetinin Avropanın qabaqcıl elmi-tədqiqat mərkəzləri ilə əlaqələrinin genişləndirilməsi, birgə tədqiqatların və elmi nəşrlərin təşviqi, eləcə də Avropa İttifaqının maliyyələşdirdiyi beynəlxalq proqramlarda, o cümlədən "Horizon Europe" çərçivəsində iştirak imkanlarının artırılması baxımından əhəmiyyətlidir.

Qeyd edək ki, əməkdaşlığın ilkin nəticəsi olaraq "Performance Optimization of Polysiloxane/GO Nanocomposite-Based Triboelectric Nanogenerators with Varying GO Concentrations" adlı elmi məqalə "Fullerenes, Nanotubes and Carbon Nanostructures" jurnalında nəşr üçün qəbul edilmişdir.

Qarabağ Universiteti beynəlxalq elmi əməkdaşlıqların genişləndirilməsi, innovativ tədqiqat mühitinin formalaşdırılması və yüksəkixtisaslı kadr hazırlığının təmin edilməsi istiqamətində fəaliyyətini ardıcıl şəkildə davam etdirir.

**Səhifəni hazırladı: Rəmziyyə HƏSƏNOVA, Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi**

# Naxçıvan enerji potensialında kadr hazırlığı və yeni perspektivlər

**Energetika sahəsi sürətlə dəyişir və bu dəyişimin mərkəzində artıq yeni texnologiyalarla işləməyi bacaran gənc mütəxəssislər dayanır. Dünyada “yaşıl enerji”yə keçid, rəqəmsallaşma və innovativ həllər bu sahədə həm yeni imkanlar, həm də ciddi tələblər yaradır. Naxçıvanda da energetika istiqamətində aparılan işlər, xüsusilə kadr hazırlığı və beynəlxalq təcrübə proqramları diqqət çəkir. Universitet-istehsalat əməkdaşlığı və praktiki tədris imkanları tələbələrin real iş mühitinə daha hazır yetişməsinə şərait yaradır. Bu istiqamətdə görülən işlər və regionun enerji perspektivləri ilə bağlı Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Energetika mühəndisliyi kafedrasının baş müəllimi Sevinc Rzayeva ilə həmsöhbət olduq.**



*— Sevinc xanım, Naxçıvan Dövlət Universitetində energetika mühəndisliyi ixtisası üzrə kadr hazırlığı hazırda hansı səviyyədə aparılır?*

— Naxçıvan Dövlət Universitetində “Energetika mühəndisliyi” ixtisası üzrə kadr hazırlığı yüksək səviyyədə aparılır. Bu ixtisas 2008-ci ildən etibarən Memarlıq və mühəndislik fakültəsinin tərkibində yaradılıb. Həmin ildən bu yana bizim məzunlarımız Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasının energetika sahəsində müxtəlif vəzifələrdə çalışırlar. “Energetika mühəndisliyi” ixtisasında təhsil alan tələbələrə yüksək imkanlar yaradılıb. İstər fakültə daxilində, istərsə də “Naxçıvan Enerji” MMC ərazisində yerləşən bir neçə laboratoriyalar var ki, tələbələrimiz bu laboratoriyalardan yararlanırlar. Tələbələrimiz eyni zamanda “Naxçıvan Enerji” MMC-də təcrübədə olurlar. Tələbələr burada əyani şəkildə enerjinin alınmasının yolları, yarımstansiyalar, yarımstansiya avadanlıqları və onların təhlükəsizlik qaydaları ilə yaxından tanış olurlar. Bu prosesdə “Naxçıvan Enerji” MMC-nin ixtisaslı mütəxəssisləri tələbələrə yaxından köməklik göstərirlər. Bu da tələbələrin energetika sahəsindəki biliklərinin daha da artmasına və gələcəkdə çalışacaqları müəssisələrdə texniki qaydalara riayət etmələrində və yarımstansiya avadanlıqları ilə işləmə qaydalarında köməklik göstərəcək.

*— Energetika ixtisasının tələbələri universitetin beynəlxalq təcrübə imkanlarından yararlana bilirlərmi?*

— Universitetimizin tələbələri xarici ölkələrdə də mütəmadi olaraq təcrübə proqramlarında iştirak edirlər. 2021-ci ildə tələbələr Almaniyanın Vismar şəhərində energetika sahəsi üzrə təcrübə keçiblər. Orada olarkən tələbələr külək və günəş enerji qurğuları ilə yaxından tanış olublar, bu qurğulardan enerjinin alınma yollarını ətraflı şəkildə öyrəniblər. Bu, təkcə energetika sahəsində deyil, tələbələrin dünya görüşünün artmasında da böyük rol oynayıb.

2022-ci ildə isə mənim rəhbərliyim və energetika xidmətinin bir neçə əməkdaşı ilə birlikdə tələbələrimiz İtaliyanın Florensiya şəhərində təcrübədə oldular. Bu şəhərdə yerləşən “Fimer” şirkətinin təlim mərkəzində olduq. Burada tələbələr yeni texnologiyalar sayılan invertorlar haqqında mühazirələr dinləyiblər. Mühazirəçilər yüksək ixtisaslı kadrlardan ibarət idi. Onlar invertorların iş prinsipi, daxilində gedən enerji dəyişmələri və tətbiq sahələri barədə tələbələrə ətraflı məlumat verdilər.

Həmçinin Florensiya şəhərində invertor istehsal edən zavodla yaxından tanış olduq və həmin şirkətin ərazisində yerləşən günəş elektrik stansiyalarına baxış keçirdik. Təcrübə müddətində tələbələr invertorların quraşdırılması və günəş elektrik stansiyalarının fəaliyyəti ilə yaxından tanış oldular. Bu il isə energetika ixtisasında təhsil alan IV kurs tələbələrimiz Trabzon şəhərində təcrübəyə göndərilərək Qaradəniz Texniki Universitetinin nəzdində fəaliyyət göstərən energetika fakültəsində təcrübə keçiblər. Onlar stansiyalarla yaxından tanış olmuş, yüksəkixtisaslı kadrlar isə bu təcrübədə tələbələrə rəhbərlik edib. Bütün bu təcrübə prosesləri tələbələrin gələcək iş həyatında böyük əhəmiyyət kəsb edir. Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Elektroenergetika mühəndisliyi kafedrasında 2008-ci ildən bəri 5 illik elmi-tədqiqat işləri aparılır. Muxtar respublikanın alternativ enerji potensialı araşdırılıb və bu sahədə müxtəlif tədqiqat işləri aparılıb. Kafedranın əməkdaşları xarici ölkələrdə keçirilən elmi konfranslarda iştirak edirlər.



*— Energetika sahəsinin bu gün və gələcək üçün əhəmiyyəti nədir?*

— Energetika sahəsinə təkcə bir ixtisas kimi yanaşmaq olmaz, bu sahə həyatın davamlılığını təmin edən əsas sistemdir. Energetika bir ölkənin iqtisadi gücünün, sənaye inkişafının və milli təhlükəsizliyinin əsas dayağıdır. Enerji olmadan həyatı təsəvvür etmək olmaz. Bu gün dünya enerji sistemi böyük transformasiyalar yaşayır. Ənənəvi sistemlər öz yerini daha ağıllı, rəqəmsal sistemlərə ötürür. “Smart Quick” adlandırılan ağıllı şəbəkələr vasitəsilə enerji real vaxt rejimində idarə olunur, vaxt itkisinin qarşısı alınır və qəzalar aradan qaldırılır. Eyni zamanda dünya “yaşıl enerji”yə keçid etməyə başlayır. Bütün bu yeniliklər energetika sahəsində ixtisaslı kadrların yetişdirilməsinə ehtiyac yaradır. Bu sahədə çalışan mütəxəssislər yüksək biliklərə sahib olmalı, rəqəmsal sistemlər, avtomatlaşdırma və proqramlaşdırma biliklərinə yiyələnməlidirlər. Bunun üçün Naxçıvan Dövlət Universiteti bütün lazımi təchizatla təmin olunub.

*— Bəs məzunlar üçün iş imkanları nə dərəcədə genişdir?*

— Bu gün energetika ixtisasını bitirən tələbələr üçün iş imkanları olduqca genişdir. Dövlət enerji qurumları, özəl şirkətlər, beynəlxalq layihələr, alternativ enerji sektoru və elmi-tədqiqat sahəsində gənclərin fəaliyyət göstərməsi mümkündür.

Gələcəyin energetika mühəndisləri texniki biliklərlə yanaşı böyük məsuliyyət hissi və innovativ baxışa sahib olmalıdır. Bu gün bu ixtisası bitirən tələbələr gələcəkdə enerji təhlükəsizliyini təmin edən sistemlərin müəllifi ola bilər. Bakalavr səviyyəsi ilə yanaşı, magistratura pilləsində də energetika mühəndisliyi, eləcə də elektrik sistemləri və şəbəkələri ixtisasları üzrə kadr hazırlığı davam etdirilir. Bu da sahənin perspektivliyinin açıq göstəricisidir.

*— Naxçıvanın “yaşıl enerji” zonasına çevrilməsi strategiyasını necə qiymətləndirirsiniz?*

— Naxçıvanın “yaşıl enerji” zonasına çevrilməsi strategiyası regionun gələcək inkişafı üçün çoxşaxəli və uzaqgörən yanaşmadır. Bu siyasət həm yerli bərpa olunan enerji potensialından səmərəli istifadəni, həm də enerji təhlükəsizliyinin möhkəmləndirilməsini təmin edir.

Bu strategiya iqtisadi baxımdan da yeni imkanlar açır, investisiyaları cəlb edir, yeni iş yerləri yaradır, sənaye və xidmət sektorunun imkanlarını genişləndirir. Eyni zamanda enerji xərclərinin optimallaşdırılması və ixrac imkanlarının formalaşması regionun rəqabət qabiliyyətini artırır. “Naxçıvan Enerji” MMC-nin məlumatlarına əsasən, muxtar respublika ərazisi min meqavatlarla hesablanan bərpa olunan enerji potensialına malikdir. Universitet ərazisində də 10 KVt külək enerji qurğusu və 3.3 KVt günəş panelləri quraşdırılıb ki, bunları birlikdə mini hibrid enerji stansiyası adlandırmaq olar. Memarlıq və mühəndislik fakültəsi ilk vaxtlarda buradan təmin olunan enerji hesabına öz enerjisini təmin edirdi. Tələbələr dərslər zamanı bu qurğularla əyani şəkildə tanış olur, günəş panelləri və külək qurğularının iş prinsiplərini öyrənirlər.

Naxçıvan Muxtar Respublikasında “yaşıl enerji” zonalarının yaradılması, yeni günəş və külək elektrik stansiyalarının qurulması mühüm əhəmiyyət kəsb edir. Bu stansiyalar gələcəkdə kadrlar üçün iş imkanlarının artmasına da şərait yaradacaq. Dövlət başçısının qəbul etdiyi qərarlara əsasən, 2030-cu ilə qədər 1200 MVt gücündə böyük günəş elektrik stansiyasının tikilməsi planlaşdırılır. Eyni zamanda Culfa və Ordubad—Arazboyu ərazilərdə külək enerji qurğularının quraşdırılması da səmərəlidir. Hazırda Naxçıvan enerji sistemi ölkənin enerji sistemi ilə sinxron deyil və ayrı fəaliyyət göstərir. Gələcəkdə Zəngəzur dəhlizinin açılması enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaq. Bununla yanaşı, Cəbrayıl rayonunda quraşdırılan 330 KVt enerji stansiyasının Naxçıvanla əlaqələndirilməsi, yüksəkgərginlik xətlərinin və çevirici stansiyaların qurulması, həmçinin 400 KVt Naxçıvan—Türkiyə enerji xəttinin çəkilməsi nəzərdə tutulur.

*— Sonda bir pedaqoq olaraq enerji potensialının inkişafı barədə nə deyə bilərsiniz?*

— Bir pedaqoq olaraq Naxçıvanın enerji strategiyasını çox perspektivli hesab edirəm. Bu strategiya təkcə enerji sektorunun deyil, həm də insan kapitalının inkişafına xidmət edir.

“Yaşıl enerji” zonası anlayışı tələbələrə və gənc mütəxəssislərə yeni imkanlar açır, onları innovativ texnologiyalarla tanış edir və təhsilin praktiki inkişafına böyük təkan verir. Eyni zamanda bu strategiya regionun iqtisadi potensialını artırır və Naxçıvanı gələcəkdə mühüm enerji mərkəzlərindən birinə çevirə bilər.

**Rafiq TƏHMƏZ,**
**“Şərq qapısı” qəzetinin müxbiri**




# Xalq Təhsili Muzeyi

## Azərbaycan təhsilinin 94 illik yaddaşı

**Azərbaycanın zəngin maarifçilik ənənələrinin, pedaqoji fikrinin və milli-mənəvi dəyərlərinin qorunub yaşadıldığı və nəsildən-nəslə ötürülən nadir məkanlardan biri olan Xalq Təhsili Muzeyi özünün 94 illiyini qeyd edir. Bu unikal elm və mədəniyyət ocağı demək olar ki, bir əsrə yaxın müddətdə xalqımızın təhsil tarixinin canlı salnaməsinə çevrilmişdir. Muzey yalnız təhsilimizin keçmişinin, dünəninin, bu günün izlərini qoruyub saxlamır, eyni zamanda maarifçilik ideyalarının inkişaf yolunu, Azərbaycan ziyalılarının zəhmət və fədakarlığını, təhsil sisteminin müxtəlif mərhələlərdə qazandığı nailiyyətləri geniş ictimaiyyətə təqdim edir.**



Bu illər ərzində muzey öz zəngin ekspozisiyaları ilə ziyarətçilərini zamanın dərin qatlarına apararaq, qədim dövrlərdən başlayıb müasir müstəqillik mərhələsinə qədər uzanan təhsil yolumuzu ardıcıllıqla nümayiş etdirir. Burada hər bir eksponat, sənəd, fotoşəkil Azərbaycan müəlliminin zəhmətindən, ziyalı fədakarlığından, xalqın elmə və biliyə olan sonsuz ehtiramından xəbər verir.

Xalq Təhsili Muzeyi yalnız keçmişin qoruyucusu deyil, həm də gələcəyə ünvanlanan bir mənəvi körpüdür. Onun salonlarında nümayiş etdirilən materiallar, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti, təhsilin inkişaf mərhələlərini əks etdirən nadir nümunələr gənc nəsildə elmə maraq, milli kimliyə bağlılıq və vətənpərvərlik hisslərini gücləndirir.

Muzey bu gün də zəngin fondları, nadir eksponatları və elmi əsaslarla qurulmuş ekspozisiyaları ilə ziyarətçiləri Azərbaycan təhsilinin çoxşaxəli inkişaf yolu ilə yaxından tanış edir.

Özünün 94-cü ilini geridə qoyan Xalq Təhsili Muzeyinin fəaliyyətinə adıçəkilən unikal məkanın direktoru, pedaqogika üzrə fəlsəfə doktoru Zülfiyyə Şiriyeva ilə birlikdə nəzər saldıq.

### “Bizim muzey Azərbaycan təhsilinin canlı tarixidir”

“Bizim muzey sadəcə eksponatların toplandığı məkan deyil, bu, Azərbaycan təhsilinin canlı tarixidir”, - deyə Zülfiyyə Şiriyeva söhbətə başlayır.

Onun sözlərinə görə, 27 aprel 1932-ci ildə yaradılan Xalq Təhsili Muzeyi təhsil tariximizi təbliğ və təqdim edir: “Muzeydə təhsil sahəsində böyük xidmətləri olan maarifçilərə, elm xadimlərinə, pedaqoq-alimlərə, ziyalılara, iş təcrübəsi geniş yayılan qabaqcıl müəllimlərə və təhsil müəssisələrinə dair sənəd və materiallarla yanaşı, tədris prosesini əks etdirən fotoşəkillər, müxtəlif illərə məxsus dərslik və proqramlar, tədris müəssisələrində istifadə edilən dərs, eləcə də texniki vəsaitlər və ləvazimatlar, şagird, tələbə və müəllimlərin əl işləri, albomlar, maketlər və digər eksponatlar nümayiş etdirilir.

### Hər salonda təhsilimizin ayrı-ayrı mərhələləri əks olunub

Həmsöhbətimiz onu da bildirir ki, muzeyin xronoloji ardıcıllığa riayət edilərək elmi-tarixi əsaslar üzərində qurulmuş daimi ekspozisiyası 6 salonda yerləşdirilmişdir. I salonun ekspozisiyası qədim zamanlardan başlayaraq XIX əsrin II yarısına qədər olan dövrdə təhsilin inkişaf tarixini əks etdirən maraqlı sənəd və materiallar, Azərbaycan xalqının keçdiyi əlifba mərhələləri, II salon XIX əsrin sonu XX əsrin əvvəllərində təhsil, III salon 1918-1940-cı illərdə təhsil, IV salon ali və orta ixtisas təhsilinə, V salon ümumtəhsil, texniki-peşə məktəblərinin fəaliyyətinə, 1941-1945, 1946-1980-ci illərdə uşaq evləri, internat məktəblərinin yaranması və inkişafına dair sənəd və materialları əhatə edir:

### “Eksponatlar sanki danışır, Azərbaycan təhsilinin keçdiyi tarixi yolu göz önündə canlandırır”

Zülfiyyə Şiriyeva VI salonun müstəqillik illərində Azərbaycanda təhsilin inkişafına həsr olunmaqla üç bölmədən ibarət olduğunu söyləyir: “Azərbaycan dövləti və hökumətinin təhsilə göstərdiyi diqqət və qayğı VI salonun ekspozisiyasının əsas istiqamətidir. Onu da xüsusi qeyd etmək istərdim ki, salonun əsas hissəsində nümayiş etdirilən Ümummilli Lider Heydər Əliyevin Azərbaycan təhsilinin keyfiyyətinin yüksəldilməsi və inkişafı naminə gördüyü işləri, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsil sahəsində genişmiqyaslı fəaliyyətini və Heydər Əliyev Fondunun təhsilə göstərdiyi qayğını təcəssüm etdirən çoxsaylı sənəd və materiallar ziyarətçilər tərəfindən böyük maraqla qarşılanır”.



Salonun ikinci bölməsində isə müstəqillik illərində, bütövlükdə Azərbaycan təhsil sisteminin fəaliyyətini əks etdirən sənəd və materiallar, statistik məlumatlar, nəşr nümunələri, yeni dərsliklər, maketlər və digər eksponatlar nümayiş etdirilir. Həmin bölmədə Elm və Təhsil Nazirliyinin fəaliyyətini əks etdirən sənəd və materiallara, hədiyyələrə xüsusi yer ayrılmışdır. Burada həmçinin pedaqoji kadrlara göstərilən qayğıya və Azərbaycan müəllimlərinin XI-XIII qurultaylarına dair materiallar da nümayiş olunur. Salonun üçüncü bölməsində nümayiş etdirilən sənəd və materiallar məktəbdənkənar müəssisələrə, uşaq, yeniyetmə və gənclərin mənəvi və estetik tərbiyəsinə həsr edilmişdir. Vitrinlərdə uşaq, yeniyetmə və gənclərin hazırladıqları tətbiqi sənət nümunələri, müxtəlif əl işlərinə yer verilmişdir.

Bütövlükdə muzeydə nümayiş olunan eksponatların hər biri sanki danışır, Azərbaycan təhsilinin keçdiyi tarixi yolu göz önündə canlandırır. Təbii ki, direktor bundan məmnunluq duyduğunu deyir: “Biz sevinirik ki, ziyarətçilərimizdə Azərbaycan təhsilinin həm keçmişi, dünəni, həm də bu günü haqqında ətraflı təsəvvür yarada bilirik”.

### Unikal məkan dünyada tanınır

Zülfiyyə Şiriyevanın sözlərinə görə, ölkəmizdə təhsillə bağlı belə bir muzeyin fəaliyyəti, təcrübəsi beynəlxalq səviyyədə də maraqla qarşılanıb. Belə ki, muzeyin iş təcrübəsi əsasında 1986-cı ildə Bolqarıstanın Qabrovo şəhərində Milli Təhsil Muzeyi yaradılıb: “Hazırda muzeyimizdə həmçinin Ekspozisiya, Elmi-kütləvi iş, Fond və kitabxana şöbələri fəaliyyət göstərir. Muzeyin işçi heyəti adıçəkilən şöbələrin fəaliyyətini dəstəkləmək, muzey sərvətlərini qorumaq, ekskursiyaya gələnlərə keyfiyyətli xidmət təqdim etmək üçün bu sahədə bilik, təcrübə və bacarıqlarını əsirgəmirlər. Bilirsiniz, mən öz işlərini sevərək görən əməkdaşlarımızın əməyini də xüsusi qeyd etmək istərdim. Muzey sərvətlərini, xüsusilə təhsilimizin tarixini qorumaq, gələcək nəsillərə çatdırmaq böyük məsuliyyətdir, eyni zamanda şərəfli bir missiyadır. Xalq Təhsili Muzeyi zəngin mütərəqqi ənənələrə və milli-mənəvi dəyərlərə söykənərək, pedaqoji fikrin inkişaf tarixini və müasir Azərbaycan təhsilinin nailiyyətlərini əhatə edən sənəd və materialları qoruyub saxlayır və muzeyə gələnlərə layiqincə təbliğ edir”.

Direktordan onu da öyrənirik ki, muzeyin qonağı olan görkəmli elm və mədəniyyət xadimləri, ABŞ, Misir, Şimali Kipr, Küveyt, Almaniya, Hindistan, Polşa, Rusiya Federasiyası, Türkiyə, Yəmən, Gürcüstan, Qazaxıstan, Belarus, Əfqanıstan və digər ölkələrin təhsil və mədəniyyət işçiləri, xarici ölkələrin Azərbaycandakı səfirləri, təhsil və elm nazirləri, təhsillə bağlı qurumların rəhbərləri, xarici qonaqlar bu məkandakı ekspozisiyalarla yaxından tanış olduqdan sonra “Rəy kitabı”nda öz təəssüratlarını yazmış, təhsil tarixinin təbliğində muzeyin əhəmiyyətini xüsusi vurğulamışlar.

### Muzeylər hər zaman diqqət mərkəzindədir

Həmsöhbətimiz son illərdə muzeylərə göstərilən diqqət və qayğının fəaliyyətlərini daha da gücləndirdiyini qeyd edir: “Respublikamızın muzeyləri dövlət qayğısı ilə əhatə olunmaqla yanaşı, hər zaman diqqət mərkəzindədir. Ölkə başçısı İlham Əliyevin “Azərbaycanda muzey işinin yaxşılaşdırılması” haqqında 14 iyul 2008-ci il tarixli və “Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planının təsdiq edilməsi haqqında” 22 may 2009-cu il tarixli Sərəncamlarının icrası muzeylərin fəaliyyətinin daha da təkmilləşdirilməsi, müasir standartlara müvafiq qurulmasına və tarixi, mədəni irsin, maddi-mədəniyyət nümunələrinin mühafizəsi, təbliği işinin yüksək səviyyəyə qaldırılmasına təkan vermişdir”.

### Təhsilə, biliyə və müəllim əməyinə qarşı daha dərin hörmət, ehtiram...

Bəli, Xalq Təhsili Muzeyi yalnız eksponatların nümayiş olunduğu bir məkan deyil, - bu, uzunillik təhsilimizin tarixini, ənənələrini özündə yaşadan canlı bir yaddaşdır.

94 il əvvəl əsası qoyulan bu unikal muzey bu gün də eyni missiyanı daşıyır: Hər bir insanda təhsilə, biliyə və müəllim əməyinə qarşı daha dərin hörmət və ehtiram oyatmaq.

**Samirə KƏRİMOVA**

# Uğur hekayələri

**Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi robototexnika və proqramlaşdırma istiqamətli beynəlxalq yarışlara hazırlaşır.**

# Bakıdan dünyaya

## Tələbələr robotları ilə beynəlxalq arenaya çıxırlar











Mərkəzin direktoru Şaban Cəərçiyev "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib ki, hazırda mərkəzdə 9 müəllimin rəhbərliyi ilə 47 tələbə qazanacaqları beynəlxalq uğura köklənib. Onlardan 38 tələbə Hindistan,Yaponiya və Çində keçiriləcək yarışın ölkə üzrə final mərhəlsinə vəsiqə qazanıb: "Həmin yarışlardan biri "Robotların qaydasız döyüşü"dür. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və AREA-nın təşkilatçılığı ilə keçirilən yarışda mərkəzi təmsil edəcək komandada 5 tələbə, 1 müəllim yer alıb. Tələbələrimizin "ANVILION" adlandırdıqları komanda qalib olarsa, yarışın Hindistanda keçiriləcək final mərhələsində də iştirak edəcəyik. Qeyd edim ki, son iki il ərzində bu yarışın qalibi məhz Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandası olur".

"Azerbaijan International Robotics Olympiad 2026" çərçivəsində təşkil olunan "Mini Sumo" yarışında isə mərkəzi 2 komanda - "İnnovation Sumo" və "Industrial Sumo" komandaları təmsil edəcək. Yarış "AzeRobot" və Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilir: "Yarışda ümumilikdə 9 tələbə və 2 müəllim iştirak edəcək. Yarışın qalibləri Yaponiyada keçiriləcək beynəlxalq mərhələdə ölkəmizi təmsil etmək hüququ əldə edəcəklər".

Mərkəzin daha bir komandası "RoboChallenge Azerbaijan 2026" yarışına hazırlaşır: "Bu yarışda mərkəzimiz daha geniş heyətlə təmsil olunacaq. Gənclər və İdman Nazirliyi və "Azercell"in təşkilatçılığı ilə ölkədə ilk dəfə keçirilən bu yarışda mərkəzimizi 25 tələbə və 6 müəllim təmsil edəcək. Onlar bu yarışda "Python", "Proqramlaşdırma" və "Mini Sumo" kateqoriyaları üzrə iştirak edəcəklər. Bu yarışın ölkə finalında uğur qazananlar Çində keçiriləcək beynəlxalq yarışda Azərbaycan adından çıxış edəcəklər".

"WorldSkills Shanghai 2026" yarışına isə 9 tələbə üç istiqamət üzrə - elektronika, qaynaq və avtomobil texnologiyaları sahələrində hazırlaşır: "Bu hazırlıq prosesi iştirakçıların peşəkar ustalığının artırılması, beynəlxalq standartlara uyğun bacarıqların formalaşdırılması və Azərbaycanın peşə təhsili potensialının qlobal platformada nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır".

Şaban Cəərçiyevin fikrincə, beynəlxalq yarışlara hazırlıq İKT istiqaməti üzrə təhsil alan tələbələrin peşə biliklərinin dərinləşdirilməsində mühüm əhəmiyyət daşıyır: "Belə yarışlar yalnız tələbələrin texniki və praktiki səriştələrinin inkişafına deyil, eyni zamanda komandada çalışma, problem həlli, sürətli qərarvermə və innovativ düşünmə bacarıqlarının formalaşmasına da ciddi töhfə verir. Bununla yanaşı, bu istiqamətdə əldə olunan nəticələr peşə təhsilinin ictimai nüfuzunun artırılması, gənclərin texnologiya sahələrinə marağının gücləndirilməsi və mərkəzimizin innovasiya ekosistemindəki rolunun daha da möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir".

# Azərbaycanı Şanxayda təmsil edəcək

# Elsevərin peşə yolu

**Ötən həftə "World skills-2026"da Azərbaycanı təmsil edəcək komandanın 2 üzvü - aşpaz və dəmir yolu texnologiyaları üzrə iştirakçısı seçildi. Komandanın "dəmiryolçu"su Dəmiryolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin 17 yaşlı tələbəsi Elsevər Yaqubov oldu. "Azərbaycan müəllimi" Elsevəri Şanxaya qədər aparacaq peşə yolu ilə maraqlanıb, onunla müsabiqədə uğur qazanmasına səbəb olan peşə bacarıqları barədə söhbətləşib.**






### Oyun yeri internet, oyuncağı böyük maşınlar, qatarlar, yeni texnologiyalar olub

2009-cu ildə Zərdab rayonu Ləleağacı kəndində anadan olan Elsevər Yaqubov ümumi orta təhsilini bitirənə kimi kənddən çıxmayıb. Amma bu balaca kənd uşağının boyundan böyük maraqları olub. Ən böyük əyləncəsi böyük maşınlar, hətta qatarlar, ağır texnikalar olub. Çoxlarından fərqli olaraq internetdən oyunlar yükləmək üçün yox, araşdırmaq, maraqlandığı suallara cavab tapmaq üçün istifadə edib: "İnternetdə yeni texnikalar, yeni mexanizmlər haqqında araşdırmalar etmişəm. Qatarlar məndə böyük maraq oyandırdı".

Qatarlara olan marağı onun karyera yolunu da müəyyənləşdirib. Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində təhsil almağa başlayıb: "Oxuduğum təhsil müəssisəsini də özüm internetdə axtarıb tapmışam. Burada texniki peşə təhsili alıram".

"Gələcəkdə daha çox nüfuzu olan peşələr var. Fikrimcə, həmin peşələrdən biri də mənim ixtisasımdır. Ona görə mən də sevdiyim işlə məşğul olacağam. Sevdiyim işi ən yüksək səviyyədə öyrənəcəyəm. Ali təhsil almaqla bağlı hələ ki qəti fikrim yoxdur. İşimin peşəkarı olmaq üçün ali təhsil almağıma, məncə, ehtiyac yoxdur", - deyən Elsevər üçün uğur qapıları məhz təhsil aldığı peşə təhsili mərkəzində açılıb: ""WorldSkills" yarışı barəsində bizə məlumat veriləndə çox maraqla dinlədim. Təbii ki, yarışa qatılmaq şərtləri ilə maraqlandım. Çox düşünmədən qərar verdim".

### Yarış həyəcanı: "Təsir altında tez qərar vermək kimi bir çox sınaqlardan keçdim"

"World Skills Azerbaijan" İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində keçirilən dəmir yolu texnologiyaları istiqaməti üzrə milli yarış uğurla başa çatıb: "Milli yarışın ilk turu məktəbdə keçrildi. Yarışın nəticəsinə görə 12 tələbə seçildi. Bir neçə gündən sonra Azərbaycan Dəmir Yolları QSC-nin dəstəyi ilə final turu keçirildi və mən 1-ci yerə layiq görüldüm".

Seçim prosesinin çətin və həyəcanlı keçdiyini deyən Elsevər qiymətləndirmədən də danışıb: "Qiymətləndirmə prosesində ADY-dən nümayəndələr və mərkəzimizin müəllimləri istirak etdi. Mən 11 tələbə yoldaşımla mübarizə apardım. Digərləri ilə müqayisədə əl qabiliyyətim daha yaxşı idi və qalib oldum".

Müsabiqədən uğurla keçən qəhrəmanım deyir ki, mübarizə şəraitində, sadəcə qalib olmağı yox, həm də dostluqlar qurmağı bacarıb: "Burada yeni dostlar qazandım və təsir altında tez qərar vermək kimi bir çox sınaqlardan keçdim".



### Təlimlər davam edir: "Burada öyrəndiklərim ən böyük qazancım olacaq"

Milli yarışda qalib seçilmək mübarizənin sonu yox, başlanğıcıdır. Bu qələbə həm də böyük məsuliyyət qoyur. O, Azərbaycanı Şanxayda layiqli şəkildə təmsil etməlidir. Bu məsuliyyətin öhdəsindən layiqincə gələ bilmək üçün də var gücü ilə çalışır: "Hazırda təlimlərimiz davam edir. Bakı Lokomotiv Deposunda ADY işçiləri ilə birgə təcrübə keçirik. Peşəkar mütəxəssislərlə təlimlər xoşuma gəlir, çox maraqla öyrənir, əlimə düşən bu fürsəti layiqincə dəyərləndirməyə çalışıram. Bilirəm ki, bu təlimlərdə öyrəndiklərim bütün karyeram dövründə ən böyük qazancım olacaq".

Elsevər qeyd edir ki, dəmir yolu texnologiyaları beynəlxalq yarışa ilk dəfə salındığından sözügedən ixtisas üzrə Çində ödənişsiz təlimlər təşkil edilib. Ötən il təşkil edilən 10 günlük təlimlərə qatılan Elsevər Yaqublu burada uğurla iştirak edib: "Ötən ilin oktyabrında Çinin Çançun şəhərində "Changchun Digital Technology Vocational College" də təlim keçdim. Təlimlər mənim üçün çox maraqlı idi. Yeni insanlarla tanış oldum, yeni biliklər qazandım və yeni texnikalar gördüm. Bunun kimi daha bir təlim yarışlardan əvvəl də keçiriləcək. 10 günlük ödənişsiz təlimlərin keçiriləcəyi bildirilib. Həmin təlimlərə də qatılacağam. Yarışda öz ölkəmi ən yaxşı şəkildə təmsil edəcəyimə inanıram".

**Səhifəni hazırladı: Ruhiyyə DAŞSALAHLI**

# BMU-nun 6 ixtisası Avropa Reyestrinin bazasına daxil edilib



**Bakı Mühəndislik Universiteti (BMU) ali təhsil sahəsində mühüm nailiyyətə imza atıb. Universitet tarixində ilk dəfə olaraq beynəlxalq akkreditasiyadan keçən altı təhsil proqramı (İnformasiya təhlükəsizliyi, Kompüter mühəndisliyi, İnformasiya texnologiyaları, Kimya mühəndisliyi, Mexanika mühəndisliyi, Elektrik və elektronika mühəndisliyi) Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Reyestrinin (EQAR) rəsmi məlumat bazasına daxil edilib.**

BMU-da tətbiq olunan akademik standartların yüksək səviyyəsini təsdiq etməklə yanaşı, universitetin Avropa Ali Təhsil Məkanının (EHEA) prinsiplərinə uyğun inkişaf etməsini bir daha təsdiqləyir.

Qeyd olunan nailiyyət son illər universitetin strateji yanaşmasına uyğun olaraq həyata keçirilən məqsədyönlü və sistemli fəaliyyətin nəticəsidir. BMU-nun Strateji İnkişaf Planında təhsil proqramlarının beynəlxalq akkreditasiyası prioritet istiqamətlərdən biri kimi müəyyən edilib, görülən işlər artıq konkret və beynəlxalq səviyyədə tanınan nəticələr verməkdədir.

Eyni zamanda, bu uğur yalnız institusional nailiyyət deyil, həm də Azərbaycanın ali təhsil sisteminin inkişafına mühüm töhfə kimi qiymətləndirilir. Habelə Azərbaycan ali təhsil kvalifikasiyalarına beynəlxalq etimadın möhkəmlənməsinə xidmət edir.

BMU gələcəkdə beynəlxalq akkreditasiyadan keçmiş proqramların sayını artırmağı və qlobal akademik əməkdaşlıqları daha da genişləndirməyi hədəfləyir.




# ADNSU tələbəsi beynəlxalq turnirdə qızıl medal qazandı

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) İqtisadiyyat və menecment fakültəsinin 3-cü kurs tələbəsi Nicat Kərimli Türkiyənin İstanbul şəhərində keçirilən Şotokan karate üslubu (WSF) üzrə dünya səviyyəli turnirdə uğurla çıxış edərək qızıl medal qazanıb və öz kateqoriyasında birinci yerə layiq görülüb.**

24-26 aprel tarixlərində baş tutan nüfuzlu yarışda müxtəlif ölkələrdən yüzlərlə idmançı iştirak edib. Nicat Kərimli yarış çərçivəsində yüksək peşəkarlıq nümayiş etdirərək rəqiblərini geridə qoyub və Azərbaycanın idman uğurlarına növbəti töhfəsini verib.

Turnirdə Azərbaycan Karate Federasiyasının idmançıları, o cümlədən parakarate və deflimpiya idmançıları da müxtəlif yaş kateqoriyalarında şəxsi və komanda, kata və kumite üzrə mübarizə apararaq yüksək nəticələr əldə ediblər.

Ümumilikdə 117 karateçi ilə təmsil olunan Azərbaycan komandası yarışda 55 qızıl, 32 gümüş və 40 bürünc medal qazanaraq ümumi komanda hesabında birinci yeri tutub və böyük uğura imza atıb.

Qeyd edək ki, Nicat Kərimlinin qazandığı bu qələbə həm ölkə idmanının beynəlxalq arenada nüfuzunun, həm də ADNSU tələbələrinin uğurlarının artdığını bir daha nümayiş etdirir və gənclər arasında idmana marağın yüksəlməsinə töhfə verir.


“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 27054 **Sifariş:** 561

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Xəzər Universiteti Dünya məktəbini** 2019-cu ildə bitirmiş İsgəndərov Hüseyn Ramin oğluna verilmiş E-245221 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Pedaqoji İnstitutu** tərəfindən 1990-cı ildə Həsənova (Mirzəyeva) Esmira Yunis qızına verilmiş AB-024329 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 304 nömrəli tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş İmanlı Fəqan Əlinəsir oğluna verilmiş A-011152 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2022-ci ildə Kazımlı Fidan Ceyhun qızına verilmiş C-161433 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Cəbizadə Asim Rasim oğluna verilmiş A-468443 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 14 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Mustafayeva Aysel Vidadi qızına verilmiş B-270437 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Mehtiyeva Zeynəb Əliyar qızına verilmiş A-124241 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Mamaylı kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Əhmədov Tural Çingiz oğluna verilmiş B-067507 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Cocuq Mərcanlı kənd tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Cəlilov İldırım Ruslanoviç oğluna verilmiş B-468426 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Mirzalıbəyli kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Babayev Elgün Nizami oğluna verilmiş B-564802 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Mirzəyev Hüseyn Vüqar oğluna verilmiş E-077121 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbi 1989-cu ildə bitirmiş Paşayeva İradə Əli qızına verilmiş 546796 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Xırmandalı kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Əkbərov Aqil Rövşən oğluna verilmiş A-562740 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Xırmandalı kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Hacıyeva Xəyalə Sərhəddin qızına verilmiş C-166946 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Boradigah qəsəbə 1 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Zalıyev Fətulla Zalı oğluna verilmiş E-731064 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Məmmədova Suriyə Kamran qızına verilmiş A-065734 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Cəmilli kənd tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Əlizadə Əli Mehman oğluna verilmiş A-069653 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2016-cı ildə Qəfərova Səadət Ziyafət qızına verilmiş AA-084961 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Səfərova Nuranə İdris qızına verilmiş C-086955 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2013-cü ildə Kərimli Tural Oqtay oğluna verilmiş A-015080 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şəki Pedaqoji Kolleci** tərəfindən 2016-cı ildə İnayətli (Qurbanzadə) Türkan Zaman qızına verilmiş AA-075740 nömrəli subbakalavr diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 162 nömrəli tam orta məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Sovzaliyev Natiq Namiq oğluna verilmiş C-455013 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Abbasova Gülarə Arif qızına verilmiş A-820789 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Əhmədova Səfa Zaman qızına verilmiş A-285603 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Qədiməliyev Tohid Elvin oğluna verilmiş E-699482 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 22 nömrəli tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Abbasova (Nəbiyeva) Vüsalə Fazil qızına verilmiş A-721628 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Təzəkənd kənd tam orta məktəbi 1984-cü ildə bitirmiş Bayramova Elmira Əvdil qızına verilmiş A-926861 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Tağıyeva Aynurə Nazim qızına verilmiş B-693136 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Qaraqoyunlu kənd tam orta ümumtəhsil məktəbi 1992-ci ildə bitirmiş Abdullayeva (Məhərrəmova) Yavər Abdulla qızına verilmiş A-747087 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2024-cü ildə Qaçayev Sahil Nahir oğluna verilmiş C-231183 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Yeni Daşkənd kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Cəlilov Nurəli Mübariz oğluna verilmiş B-230822 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Əliyeva (Alıyeva) Çinarə Eldəniz qızına verilmiş B-549924 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Böyük Göyüşlü kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Vəliyev Rafil Zamin oğluna verilmiş C-156618 nömrəli ümumi orta təhsil haqqında attestat və 2020-ci ildə verilmiş E-329962 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qaraçala qəsəbə tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Musayev Kamal Bəhruz oğluna verilmiş E-156032 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Yenikənd kəndi tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Əliyeva Pərvin Gülmalı qızına verilmiş E-721254 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1993-cü ildə Abdullayev Amil Mərhəmət oğluna verilmiş ЦВ-859484 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir Peşə Liseyi** tərəfindən 2015-ci ildə Əhmədov Elsevər Sakit oğluna verilmiş AA-073078 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**DİN Polis Akademiyası** tərəfindən 2021-ci ildə İbrahimov Əli Allahverdi oğluna verilmiş C-092446 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Calut kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Əliyeva Mehrinisə Şərəfovna qızına verilmiş 087011 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Səfərova Günay Əbülfət qızına verilmiş B-711903 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 25 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Cəfərova Xanım Fərəməz qızına verilmiş A-523051 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Əsgərabad kənd tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Vahabzadə Nihad Rəfael oğluna verilmiş E-299859 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 263 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Mehdiyeva Xanım Sifadə qızına verilmiş B-130145 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 152 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş İslamov Tahir Edman oğluna verilmiş B-588003 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 37 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Sadıqov Kamran Fərhad oğluna verilmiş E-271893 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Sadıqov Aydın Azər oğluna verilmiş A-107007 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad Peşə Liseyi** (Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2019-cu ildə İmanov Rəhman Salman oğluna verilmiş E-178889 nömrəli tam orta təhsil haqqında attestat və A-117740 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Cavad kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Əliyeva Ayna Nuru qızına verilmiş A-794282 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 221 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Arifli Arif Mahir oğluna verilmiş E-012877 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 94 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Hüseynli Elvin Həbib oğluna verilmiş E-372175 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Slavyanka kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Məmmədzadə İdris Lətif oğluna verilmiş A-339222 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Qazma kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Sarayeva (Əliyeva) Məryəm Kamal qızına verilmiş A-218374 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 18 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Məmmədov Murad Mais oğluna verilmiş E-257407 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Əsədov Telman Məhəmməd oğluna (Tağıyev Telman Məhəmmədoviç) verilmiş A-393970 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Qaraxıdır kənd tam orta məktəbi 1987-ci ildə bitirmiş Kərimov Rahim Ramiz oğluna verilmiş A-393008 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.